Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

**Layihənin istiqaməti: "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"**

## Nizami Muradoğlu-60

# Güc, səbir və müdriklik

**Qədim Şərq ölkələrində nə zamansa belə bir inanc mövcud olub. Bu inanca görə hər bir insan öz həyatı boyu Tanrıdan üç şey diləyir: güc, səbir və müdriklik. Gücü insan Tanrıdan ona görə istəyir ki, dünyada dəyişə biləcəklərini dəyişməyə qüvvəsi çatsın. Səbri ona görə istəyir ki, dəyişməyə gücü çatmayacaq şeylərə dözə bilsin. Müdrikliyi isə insan ona görə istəyir ki, birincilərlə ikincilərı dəyişik salmasın, onları bir-birindən ayıra bilsin Ancaq Ulu Tanrı bu üç əlaməti-güc, səbir və müdrikliyi hər insana nəsib etmir. Lakin mənə elə gəlir ki, xeyli zamandan bəri yaxından tanıdığım dostum, keçmiş məmur, tanınmış şair-publisist, yazıçı-dramaturq və istedadlı alim Nizami Muradoğluya Tanrı bu üç əlamətin üçünü də bəxş edib.**

Tanrı gücü Nizami Muradoğluya ona görə bəxş edib ki, iyirmi ilə yaxın məmur işlədiyi Ordubad kimi böyük bir bölgənin dərdlərini, ağrı-acılarını ürəyində çəksin, bu rayonun bütün inzibati məsuliyyətini, çətinliklərini öz çiyinlərində daşısın və eyni zamanda orada, özünün dəyişdirməyə gücü, qüvvəsi çatanları dəyişdirə bilsin. Səbri Tanrı Nizami müəllimə ona görə bəxş edib ki, o, vətənpərvər bir vətəndaş kimi nəinki Ordubadda, eləcə də Vətəninin hər yerində - Qarabağda, Şirvanda, Mildə, Muğanda da dəyişmək istədiyi, ancaq dəyişməyə gücü çatmayan hallara dözə bilsin.

Nizami müəllimə Tanrı müdrikliyi ona görə rəva bilib ki, Azərbaycanın hər bir qarış torpağını elə öz Ordubadı, Əylisi kimi sevən əsl bir ziyalı kimi hər zaman güc ilə səbri böyük anlamda bir-birindən fərqləndirməyi bacarsın. Başqa sözlə, haqlı ilə haqsızı, zəiflə güclünü, pislə yaxşını həmişə bir-birindən ayırıb, seçə bilsin. Bu mənada Nizami müəllim müdrik bir ziyalıdır. N.Muradoğlu əsl ziyalı kimi şərəf və ləyaqət bütövlüyünü məmur işlədiyi ən mürəkkəb, ən ziddiyyətli zamanlarda belə qoruyub saxlaya bilib.

Məmmədov Nizami Murad oğlu 1955-ci il aprel ayının 2-də Naxçıvan MR-nın Ordubad rayonunun Əylis kəndində anadan olmuşdur. 1962-ci ilin sentyabr ayında Əylis kənd orta məktəbinin birinci sinfinə getmiş, 1972-ci ildə həmin məktəbin onuncu sinfini bitirmişdir. N.Məmmədov 1972-ci ildə akademik Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunun tarix-ədəbiyyat fakültəsinin Azərbay-can dili və ədəbiyyatı ixtisası üzrə birinci kursuna qəbul olmuşdur. 1976-cı ildə institutu bitirib, həmin ilin oktyabr ayından 1977-ci ilin noyabr ayınadək hərbi xidmətdə olmuşdur. O, 1978-1986-cı illərdə Naxçıvan MR-də komsomol təşkilatlarında müxtəlif vəzifələrdə çalışmış, 1987-1994–cü illərdə təhsil sahəsində fəaliyyət göstərmişdir.

N.Məmmədov 1994-cü ilin may ayından 1996-cı ilin noyabr ayınadək Ordubad Rayon İcra Hakimiyyətində icra başçısının müavini, 1996-cı ilin noyabr ayından 2002-ci ilin aprel ayınadək həmin rayonun icra başçısı vəzifəsində işləmişdir. 2010-cu ilin noyabr ayından bu günə kimi AMEA Folklor İnstitutunda elmi işçi kimi çalışır. Nizami Muradoğlu 2013-cü aprel ayının 17-də Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının iclasında "Məmməd Araz yaradıcılığında folklor motivləri" mövzusunda dissertasiya müdafiə edərək Filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsini almışdır.



N.Muradoğlu tanınmış şair, yazıçı-dramaturq, publisist, folklorşünas alim, Azərbaycan Yazıçılar Birliyinin üzvü, «Vətən media», «Həsənbəy Zərdabi» və «Qızıl qələm» mükafatları laureatıdır. İndiyə qədər Nizami Muradoğlunun 8 bədii-publisistik kitabı, 1 monoqrafiyası, 30-dan çox elmi məqaləsi nəşr olunmuşdur. Nizami Muradoğlunun "Kəhrizin suyu" və "Duman" adlı ilk şeirləri 1971-ci ildə tanınmış ədəbiyyatşünas və tənqidçi, filologiya elmləri doktoru Məsud Əlioğlunun "Uğurlu yolu" ilə o dövrün ən populyar mətbu orqanlarından biri olan "Azərbaycan gəncləri" qəzetində çap olunmuşdur. On altı yaşı hələ yeni tamam olan bir gənc haqqında Məsud Əlioğlu kimi nüfuzlu bir ədəbiyyatşünas-tənqidçinin söz deməsi, ona uğurlu yol arzulaması özlüyündə sıradan bir hadisə deyildi. Deməli, bu nüfuzlu ədəbiyyat adamı hələ xeyli gənc olan Nizami Muradoğlunun şeirlərində hansısa bir qeyri-adiliyi, istedad və qabiliyyəti duyub sezə bilmişdi...

O vaxtdan etibarən N.Məmmədov respublika mətbuatında – müxtəlif qəzet, jurnal və almanaxlarda vaxtaşırı çıxış etməyə başladı. Müəllifin ilk şeirlər kitabı – "Qayıda bilmirəm" 1989-cu ildə işıq üzü gördü. Nizami Muradoğlunun şeirlərinin bəzilərinə isə mahnılar bəstələnib və onlar tanınmış müğənnilər tərəfindən ifa olunub. Nizami Muradoğlu sonrakı kitabları olan "Dayan, əsən külək", "Sabaha açılan qapılar", "Bu dünyanın məzarları ağlamaz" və "Baba ocağı" ədəbi mühitdə əks-səda yaratdı. Bunun nəticəsi olaraq akademik V.Əliyev, profes-sorlar K.Əliyev, B.Şəfizadə, V.Yusifli, N.Saraclı, A.Yadigar, K.Allahyarov, A.Xəlil, S.Rzasoy, T.Orucov, Ş.Albalıyev, İ.Həkimov, Q.Səfərli və başqa söz adamlarının Nizami Muradoğlunun yaradıcılığına həsr etdikləri resenziya, rəy və məqalələri müxtəlif mətbuat orqanlarında çap olundu.

Ədəbi aləmdə hansı mövqedə dayanmasından, hansı yazı üslubuna, hansı ədəbi növə, hansı janra üstünlük vermesindən asılı olmayaraq hər bir bədii düşüncə sahibinin, şair və ya yazıçının Vətənə, əbədi və əzəli hiss olan Məhəbbətə, təbiət və cəmiyyət hadisələrinə özünəməxsus yanaşma tərzi və daha çox üstünlük verdiyi, sevdiyi mövzuları olur. Bu meyarla N.Məmmədovun yaradıcılığına yanaşılarsa, onun ən çox sevdiyi mövzulardan biri Vətən mövzusudur. Bu mövzulu şeirlərdə Nizami Muradoğlu illərlə ürəyində yaşatdığı, sinəsində qövr etdiyi hissləri şeirə çevirib. Onun Vətən mövzusunda yazılmış şeirlərinin ümumi mənzərəsinə diqqət yetirsək, burada bütöv Azərbaycanın bənzərsiz gözəlliklərindən, yurdumuzun igid, qəhrəman övladlarından, tariximizin şərəfli səhifələrindən və s. mövzulardan poetik bir dillə bəhs olunur. Bu şeirlərdə o taylı-bu taylı Bütöv Azərbaycanını sevən, vətənpərvər bir şair qəlbinin kövrək pıçıltıları, eyni zamanda Ana Vətənin ikiyə bölünməsindən irəli gələn nisgilli yaşantıları hiss edilir. Onun "Vətən" şeirindəki bu misralara diqqət yetirək:

*Haqqa yol gedirəm, yolum uzaqdı,*
*Qarşımda Arazdı, arxamda dağdı.*
*İkiyə bölünən ana torpaqdı,*
*Bizmi günahkarıq, ya sənmi, Vətən?*

Orijinal düşüncə sahibi olan Nizami Muradoğlunun yaradıcılığında, eyni zamanda əbədi və əzəli hiss olan məhəbbətə, təbiət və cəmiyyət hadisələrinə də özünəməxsus yanaşma tərzi hiss olunur. O, şeirlərində öz lirik qəhrəmanının daxili aləmini şirin bir dillə "şərh" etmək qabiliyyətinə malikdir. N. Muradoğlunun məhəbbət mövzusunda qələmə aldığı şeirlərin həcmindən asılı olmayaraq, demək olar ki, hamısında təsvir və tərənnüm edilən bədii material, süjet real həyatdan götürülmüşdür:

*Əllərin soyuqdur, soyuq qar kimi,*
*O vaxtın istisi, odu qalmayıb.*
*Öpüb oxşasan da ağ saçlarımı,*
*Bir ürkək baxışın dadı qalmayıb.*

Nizami Muradoğlu xalq ədəbiyyatına, klassik ədəbiyyata, milli soy-kökümü-zə, milli mədəniyyətimizə, klassiklərimizə hörmətlə yanaşan bir sənətkardır. Bu cəhətdən onun böyük ədib Hüseyn Cavid ailəsinə, onun nakam taleli oğlu Ə.Cavidə həsr etdiyi "Bu dünyanın məzarları ağlamaz" poeması və "Hüseyn Cavid" mənzum dramı xüsusi maraq doğurur.

"Bu dünyanın məzarları ağlamaz" poeması bütün Türk dünyasının böyük yazarı Hüseyn Cavidin nakam taleli oğlu, qısa ömründə, şair, bəstəkar və rəssam kimi tanınan Ərtoğrul Cavidin unudulmaz xatirəsinə həsr edilmişdir. Janrına görə lirik poema olan bu əsərdə Nizami Muradoğlu Ərtoğrul Cavidin həyat və fəaliyyəti ilə bağlı müxtəlif kitablardan - o dövrün qəzet və jurnallarından, eləcə də ayrı-ayrı şəxslərin xatirələrindən oxuyub-bildiklərini öz şair təxəyyülünün və düşüncəsinin süzgəcindən keçirərək orijinal bir formada oxuculara çatdıra bilmişdir.

Yaradıcılığı boyu H.Cavid şəxsiyyətinə olan dərin sevgi onu bu mövzuda başqa bir əsər - "Hüseyn Cavid" mənzum dramını yazmağa sövq edir. Müəllif Hüseyn Cavid və onun ailəsi, repressiya qurbanları, 30-cu illərin dəhşətləri haqqında oxuyub-öyrəndiklərini, eşidib-bildiklərini təxəyyülünün süzgəcindən keçirərək, «Hüseyn Cavid» mənzum dramında şairin bədii obrazını bütün incə çalarları ilə göstərməyə çalışmışdır.

Nizami Muradoğlunun ədəbi aləmdə maraqla qarşılanan sonuncu əsəri "Baba ocağı" romanıdır. «Baba ocağı» janrına görə tarixi romandır. Əsərdə cərəyan edən hadisələr XX əsrin əvvəllərində Bakıda və Ordubadın Əylis kəndində real həyatda baş vermiş əhvalatların fonunda təsvir edilir. Belə ziddiyyətlərlə dolu olan tarixi dövrü - erməni-müsəlman münaqişəsinin əsl mahiyyətini, onun törətdiyi ağır, qanlı-qadalı fəsadlarını bədii əsərə gətirmək hər şeydən əvvəl vətəndaş yanğısı, sonsuz Vətən sevgisi tələb edirdi.

Bu il - 2015-ci il aprel ayının 2-də tanınmış şair-publisist, yazıçı-dramaturq və folklorşünas alim, Azərbaycan Yazıçılar Birliyinin üzvü Nizami Muradoğlunun 60 yaşı tamam oldu. Nizami müəllimə Ulu Tanrıdan cansağlığı, yeni yaradıcılıq uğurları və uzun ömür – ən azı yüz illik bir ömür payı arzulayırıq. Və inanırıq ki, özünəməxsus üsluba malik olan Nizami Muradoğlu bundan sonra da tükənməz bir enerji ilə yazıb-yaradacaq, ədəbiyyatımızı dəyərli ədəbi nümunələrlə daha da zənginləşdirəcəkdir.

60 yaşın mübarək, əziz dostum və qardaşım! Allah nəsib etsin ki, 100 yaşını bütün varlığınla sevdiyin doğma Əylis kəndində keçirək!



**Tahir Orucov**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi**

email:
tahiroruclu@gmail.com

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***